# Lələtəpədən Şuşaya Qələbə yolu



**2016-cı ilin aprelində Azərbaycan Ordusu bölmələrinin göstərdiyi qəhrəmanlıq tarix boyu unudulmayacaq. Bu, sadəcə hərbi əməliyyat deyildi, xalqın, millətin qisas hissinin, haqq səsinin hayqırtısı idi.**

Ermənistan beynəlxalq hüququn tələblərini kobud şəkildə pozaraq torpaqlarımızı zəbt etmiş, təxribatlar törətmiş, dinc əhaliyə qarşı amansız vəhşiliklər həyata keçirmişdi. İllərlə işğal altında qalan torpaqlarımızın nisgili içimizdə közərirdi. Lakin ermənilər unudurdular ki, Azərbaycan xalqı bir yumruq kimi birləşib, ordumuz isə müasir dövrün ən güclü hərbi qüvvələrindən birinə çevrilmişdir. 2016-cı ilin aprelində Ermənistan silahlı birləşmələrinin cəbhə xəttində törətdiyi təxribatlar Azərbaycan Ordusu bölmələrinin əks-hücum əməliyyatına başlamağına səbəb oldu. Dörd gün ərzində igid oğullarımız düşmənin illərlə qurduğu müdafiə xətlərini darmadağın etdi, Lələtəpə yüksəkliyi, Talış kəndi və bir neçə strateji mövqeyi azad etdilər.

Aprel döyüşləri göstərdi ki, Azərbaycan Ordusu nəinki müdafiə olunmağa, həm də işğal altındakı torpaqlarını azad etməyə tam hazırdır. Bu döyüşlər bir daha sübut etdi ki, xalqımız heç vaxt işğalla barışmayacaq. Düşmən böyük itkilərə məruz qaldı, onun ordusunun süquta uğrayacağına dair ilk ciddi siqnallar verildi. Azərbaycan xalqı həmin günlərdə bir daha gördü ki, onun ordusu güclüdür, qüdrətlidir, torpağını azad etməyə qadirdir. Aprel döyüşləri Vətən müharibəsindəki böyük Zəfərin başlanğıcı oldu, millətimizin döyüş ruhunu, inamını və birliyini daha da möhkəmləndirdi.

2016-cı il aprelin 1-dən 2-nə keçən gecə Ermənistan silahlı qüvvələri növbəti dəfə beynəlxalq hüququ və atəşkəs rejimini kobud şəkildə pozaraq Azərbaycan mövqelərini və mülki əhalini ağır artilleriya atəşinə tutdular. Bu, düşmən qüvvələrinin planlaşdırılmış genişmiqyaslı təxribatı idi. Azərbaycan Ordusunun bölmələri düşmənin təxribatlarının qarşısını almaq və mülki əhalinin təhlükəsizliyini təmin etmək üçün dərhal operativ və adekvat tədbirlərin görülməsi barədə tapşırıq aldı. Ordumuz sürətli və dəqiq zərbələrlə düşmənin cəbhə xəttindəki mövqelərinə sarsıdıcı zərbələr endirdi. Həyata keçirilən əks-hücum əməliyyatları nəticəsində düşmənin ön xəttdə və dərinlikdə yerləşən canlı qüvvəsi və hərbi texnikası məhv edildi.

Ən gərgin döyüşlər Ağdərə-Tərtər-Ağdam və Füzuli istiqamətlərində aparıldı. Ordumuzun bölmələri bir neçə mühüm hərbi-strateji mövqeyi azad etdilər. Xüsusilə Tərtər rayonunun Talış kəndi istiqamətində yerləşən yüksəkliklər düşməndən təmizləndi. Bu, Azərbaycan Ordusuna həm taktiki üstünlük qazandırdı, həm də Naftalan şəhəri üçün potensial təhlükəni aradan qaldırdı. Bununla düşmənin illərdir möhkəmləndirdiyi müdafiə xətti darmadağın edildi və mövqeləri sarsıldı. Digər istiqamətdə Füzuli rayonunda geniş ərazini nəzarətdə saxlamaq imkanı verən strateji əhəmiyyətə malik Lələtəpə yüksəkliyi uğrunda ağır döyüşlər getdi. Burada Azərbaycan Ordusunun qəhrəman bölmələri cəsarət və peşəkarlıq nümayiş etdirərək düşməni geri çəkilməyə məcbur etdi və qəti qələbə qazandılar. Lələtəpənin azad olunması Qarabağ münaqişəsinin hərbi müstəvidə həll oluna biləcəyinin bariz nümunəsi idi. Bu yüksəklikdən geniş bir əraziyə nəzarət etmək mümkün olduğu üçün Azərbaycanın cəbhə xəttindəki mövqeləri daha da möhkəmləndi. Suqovuşanda yerləşən düşmən qərargahı və əsas hərbi hissələri də ağır zərbələrə məruz qaldı. Azərbaycan Ordusunun yüksək dəqiq zərbələri nəticəsində düşmənin komanda məntəqələri və infrastruktur obyektləri məhv edildi. Bununla da Ağdərə-Suqovuşan və Cəbrayıl istiqamətindəki yollar tam nəzarətə götürüldü, düşmənin hərəkət imkanları ciddi şəkildə məhdudlaşdırıldı.

Ordumuzun sürətli irəliləyişi Ermənistan rəhbərliyini təşvişə saldı və onlar dərhal xarici himayədarlarından kömək istədilər. Aprelin 5-də Moskvada Azərbaycan və Ermənistan arasında atəşkəslə bağlı razılaşma əldə olundu. Lakin bu atəşkəs də növbəti təxribatların qarşısını ala bilmədi. Haylar razılaşmadan cəmi bir neçə gün sonra - aprelin 7-də Ağdərə-Goranboy istiqamətində Azərbaycana məxsus sanitar tibb maşınını atəşə tutdular. Bu, beynəlxalq humanitar hüququn kobud şəkildə pozulması idi. Lakin düşmən bu dəfə də məqsədinə çata bilmədi. Azərbaycan Ordusu təxribatlara layiqli cavab verdi.

Aprel döyüşləri zamanı Ermənistan ordusu ağır itkilərə məruz qaldı. Döyüşlərin gedişində düşmənin 30-a yaxın tankı, 25-dən çox artilleriya qurğusu və zirehli texnikası, 800-dən çox canlı qüvvəsi məhv edildi. Ermənistanın müdafiə naziri və generalları bu ağır məğlubiyyəti gizlətməyə çalışsalar da artıq hər şey açıq-aydın göründü. Bu döyüşlərdə Azərbaycan Ordusunun şəxsi heyəti, zabit və əsgərləri misilsiz qəhrəmanlıq nümayiş etdirdilər. Hər bir döyüşçümüz canı və qanı bahasına torpaqlarımızın işğaldan azad olunması üçün savaşdı.

Aprel döyüşlərindən iki il sonra Azərbaycan Ordusu yeni bir zəfərə imza atdı. 2018-ci ilin mayında Əlahiddə Ümumqoşun Ordusu tərəfindən həyata keçirilən hərbi əməliyyat nəticəsində Naxçıvanın Günnüt kəndi və ətraf ərazilər işğaldan azad edildi. Günnüt əməliyyatı bir daha sübut etdi ki, Azərbaycan Ordusu istənilən şəraitdə uğurlu döyüş əməliyyatları aparmağa, işğal altında olan əraziləri addım-addım azad etməyə qadirdir.

Prezident, Ali Baş Komandan İlham Əliyevin Aprel döyüşlərinin ildönümü ilə əlaqədar dediyi sözlər qələbənin strateji əhəmiyyətini daha dəqiq ifadə edir: "Aprel döyüşləri, eyni zamanda ordumuzun peşəkarlığını göstərmişdir. Ordumuz əlverişsiz mövqelərdən əks-hücum əməliyyatı apararaq strateji mövqelərə sahib oldu. Bu gün bu strateji yüksəkliklər, mövqelər, işğaldan azad edilmiş ərazilər bizə imkan verir ki, təmas xəttində mövcud olan vəziyyətə tam nəzarət edək və istədiyimiz tədbiri görə bilək".

Bu qısa, lakin parlaq hərbi əməliyyatlar təkcə bir neçə yüksəklik və mövqeyin azad olunması ilə bitmədi. Aprel döyüşləri düşmənin illərlə davam edən işğalçılıq siyasətinə ciddi zərbə vurdu. Azərbaycan xalqı və ordusu bu döyüşlərdə göstərdi ki, torpaqlarımız gec-tez mütləq azad ediləcək. Məhz Aprel döyüşləri 2020-ci ildə başlayan Vətən müharibəsinin qələbə ilə başa çatacağının ilk işartısı oldu.

9 il sonra biz bu gün təkcə qısamüddətli hərbi əməliyyatları xatırlamır, həm də Aprel döyüşlərinin xalqımızda yaratdığı böyük ruh yüksəkliyini, milli birlik və qələbəyə olan inamını görürük. Azərbaycan Ordusunun qəhrəman əsgərləri o vaxt gələcək qələbələrin də təməlini qoydular.

Aprel döyüşləri Azərbaycan Ordusunun gücünü, yenilməzliyini göstərdi. Bu qələbə dörd il sonra, 2020-ci ildə başlayan Vətən müharibəsində qazanılacaq zəfərin başlanğıcı idi. Nəticədə Lələtəpədə qaldırılan bayraq Şuşada dalğalandırıldı...

**Ləman TƏHMƏZ,**
**"Respublika".**



Respublika .- 2025.- 3 aprel (№63).- S.11.